# KİTABXANALARDA ELEKTRON RESURSLARLA İŞİN TƏŞKİLİ*

**Sevda XƏLƏFOVA**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti*

***Организация работы с электронными ресурсами в библиотеках***
***Резюме:*** *В статье рассказывается об организации работы с электронными ресурсами в библиотеках, комплектации современных библиотек электронными информационными ресурсами. В статье дается информация об электронных информационных ресурсах - CD ROM, мультимедийные обучающие программы, полнотекстовые информационные базы, электронные журналы, электронные книги.*
***Electronic resource management in libraries***
***Abstract:*** *The article is devoted to the acquisition of electron information resources of libraries at present period. Comprehensive information about electron information resources as CD-ROM, multimedia educating programs, text books, full-text data bases, e-journals, e-books etc. is given in this article. The main problems of distinguished electron resources also are explained.*

***Açar sözlər:*** *kitabxanalarda elektron resurslarla işin təşkili, elektron informasiya resursları: CD ROM-lar, multimedia öyrədici proqram və dərsliklər, tam mətnli məlumat bazaları, elektron jurnallar, elektron kitablar.*
***Ключевые слова:*** *организация работы с электронными ресурсами в библиотеках, электронные информационные ресурсы: CD-ROM, мультимедийные обучающие программы, полнотекстовые информационные базы, электронные журналы, электронные книги, электронный словарь, электронные энциклопедия.*
***Keywords:*** *Electron information resources, CD-ROM, multimedia educating programs, full-text data bases, e-journals, e-books, electronic dictionaries, electronic encyclopedias*

Elektron informasiya ehtiyatları ilə təminat, daha doğrusu, elektron resursların yaradılması, saxlanılması və axtarışı kitabxana işi prosesində yeni funksiyalarla və onlarla işləmə texnologiyaları ilə birlikdə yeni istiqamətdir. Müasir informasiyalaşmış cəmiyyətdə kompüter texnologiyaları və vasitələri, eyni zamanda digər qanuni normalar əsasında informasiyanın toplanması, işlənməsi, axtarışı və ötürülməsi, onun mühafizəsinin təhlükəsizliyi, bazara çıxışı, informasiyanın lazımi vaxtda, forma və daşıyıcıda və psixoloji şərtlər nəzərə alınaraq əks etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Hazırda informasiyanın sənədləşməsi (elektron versiya, elektron sənəd, elektron resurs) informasiyanı

* *Məqalə "Universitetdaxili 50+50 qrant proqramı" çərçivəsində işlənmişdir.*



müəyyən edilmiş daşıyıcıda yazmaq, ona təşkilati forma vermək, saxta olub-olmadığını müəyyənləşdirmək, axtarış və istifadə məqsədilə identifikasiya etməyə və s. imkan verir. Dünya informasiya ehtiyatlarına çıxış, elektron sənədləşməyə keçid, sənədin qorunması və ötürülməsi və s. informasiyanın təşkilinin yeni üsulları və ona çıxış informasiyalaşmış cəmiyyətdə kitabxanalar qarşısında yeni elmi və təcrübi problemlərin həlli zərurətini qoyur.

Elektron informasiya resursları - bütünlükdə elektron məlumatlar (rəqəm, hərf, simvol və onların kombinasiyası), elektron proqramlar (məlumatın emalı da daxil olmaqla müəyyən vəzifələri yerinə yetirən operator qrupları, yaxud altproqramları) yaxud onların bir resursda əlaqəli birliyidir. Elektron informasiya resursları məntiqi quruluşu baxımından elektron sənədlərə və elektron nəşrlərə bölünür.

Elektron sənəd - məzmun cəhətdən bitkin (tam) olan və maşınlaoxunan formada müəyyən tip maddi daşıyıcıya yazılmış informasiyadır. Başqa sözlə, elektron sənəd dedikdə maşınlaoxunan (elektron) daşıyıcıya yazılmış sənəd başa düşülür.

Elektron nəşr - müraciət (axtarış, istifadə) vasitələri ilə təmin edilmiş qeyri-məhdud sayda istifadəçilərin tanış olması (oxuması) üçün məqsədli şəkildə (əsasən biznes məqsədilə) maşınlaoxunan daşıyıcıya yazılmış informasiyalardır.

Kitabxanalara daxil olan müxtəlif nəşrlərin, həm ənənəvi, həm də elektron sənədlərin sayının durmadan artması və onların məzmununun mürəkkəbləşməsi ilə əlaqədar kitabxana proseslərinin səmərəli və elmi təşkili, resursların kataloqlarda əks olunması mühüm məsələlərdən birinə çevrilmişdir və onun idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Odur ki, elektron və çap əsərləri ilə xidmətin təşkilinin, kataloqlaşdırılmasının zəruriliyi, kitabxanalarda təsvir, təsnifləşdirmə, predmetləşdirmə proseslərinin həyata keçirilməsi elektron resurslarla işin araşdırılmasına, dünyada onun ənənəvidən elektrona doğru təkamül tarixinin və inkişaf formalarının tədqiqinə ehtiyacı artırmışdır. Buna görə də kitabxana-biblioqrafiya işinin mühüm mərhələlərindən hesab olunan elektron resurslarla işin təşkilinin öyrənilməsi, ənənəvi kataloqlaşdırmadan korporativ kataloqlaşdırmaya qədər olan təkamülünün tədqiqi vacibdir.

Kitabxanalara elektron resurslarla işin təşkili və idarə olunmasının tədqiqatı zamanı öncə ənənəvi və elektron resurslarla işin təşkili və idarə olunmasının nəzəri məsələləri, ənənəvi resursların təsnifatı verilərək onlarla işin təşkili üsulları öyrənilməli, daha sonra elektron resursların təyinatı, təsnifatı, funksiyaları, elektron kataloqun fəaliyyət prinsipləri, zəruri olan proqram-texniki vasitələr, maşınla oxunan biblioqrafik yazıların yaradılması və elektron resursların biblioqrafik məlumat bazasına əlavə edilməsi metodikası, onların axtarış modelləri və üsulları şərh edilərək kitabxanalarda ənənəvi və elektron resurslarla işin təşkili və idarə olunmasının müqayisəli təhlilinə istiqamətlənməlidir.

Ümumiyyətlə, elektron resurslar öz fondlarını komplektləşdirən kitabxanaların işində böyük əhəmiyyətə malikdir. Kitabxanalarda elektron resurslarla işin təşkili prosesində əsas aspekt tələbatların öyrənilməsidir. Burada

informasiya təminatının ənənəvi və qeyri-ənənəvi formaları olan yeni vasitələrin müqayisəli şəkildə təhlil edilərək öyrənilməsi əsas yer tutur. Qeyd edildiyi kimi, kitabxana fondunun optimal komplektləşdirilməsi oxucuların informasiya tələbatlarının və dünya elektron məhsullar bazarının öyrənilməsinə əsaslanır. Elektron ehtiyatlar fondunun təşkilində bu sənədlərin spesifik xarakteristik xüsusiyyətlərini (texniki, proqram və linqvistik təminat), kitabxananın iqtisadi və texniki imkanlarını, elektron informasiya ehtiyatlarının tipologiyasını nəzərə almaq lazımdır. Elektron ehtiyatlar istifadə formalarına görə şəbəkə-lokal, daha doğrusu hər hansı fiziki daşıyıcıda, məsələn, disket, CD-ROM, DVD ROM və s. yazılmış, həmçinin uzaq məsafədə yerləşən kompüter şəbəkələrində paylanmış (məsələn verilənlər bazası, veb səhifələr, veb saytlar, telekonfrans materialları və s.) formalarda ola bilər. Məhz buna görə komplektləşdirmə prosesində lokal və uzaq məsafədə yerləşən paylanmış (qlobal) elektron nəşrlərə müxtəlif yanaşma tətbiq edilir. Qeyd edək ki, nüsxə adı altında elektron nəşrlər üçün fiziki vahid-disket və ya optik disk sayıla bilər. Son zamanlar kitabxanalar öz informasiya ehtiyatlarını daha çox multimedialı sənədləri əsasında komplektləşdirməyə üstünlük verirlər. Multimedia sənədləri özündə informasiyanın bütün tiplərini: mətn, qrafika, audio, animasiya və video informasiyaların inteqrasiyasını təmin edir.

Elektron nəşrlərin, sənədlərin və digər bu kimi elektron resursların kitabxanalara komplektləşdirilməsi mənbələri və üsulları xeyli fərqlidir. Elektron sənədlərin və digər əlaqədar resursların (məs: biblioqrafik məlumat bazaları, elektron kataloqlar, veb-saytlar və s.) əsas komplektləşdirmə mənbəyi internet resurslarıdır.

Kitabxanalarda bütün mövcud olan elektron informasiya resursları ilə komplektləşdirmənin 3 tərkib hissəsindən daha çox istifadə olunur:

1. Pulsuz, yəni hamı üçün açıq olan şəbəkə (internet) resursları ilə komplektləşmə.

2. Portativ informasiya daşıyıcılarında olan kitab, jurnal və digər növ sənədlərlə komplektləşmə.

3. Kitabxanaların pullu şəbəkə resursları ilə komplektləşdirilməsi.

Dünya elmi kitabxanalarında kitabxana rəhbərliyi əsas diqqəti elektron resurslarla işin təşkilinə ayırır, lakin elektron resurslar bütün tip kitabxanalar üçün də çox faydalıdır. Elektron resurslara giriş kompüterlər, mobil portativ qurğular və ya internet vasitəsi ola bilər. Müasir dövrümüzdə çoxlu sayda müxtəlif mövzular üzrə elektron resurslar mövcuddur ki, onların ümumi xarakterizə və təsvir etmək kifayət qədər çətindir. Bu səbəbdən kitabxanalar üçün əldə edilməsi vacib olan elektron resursların ən geniş yayılmış növlərini qeyd edək: elektron jurnallar, elektron kitablar, referat-biblioqrafik məlumat bazaları, soraq məlumat bazaları (tərcümeyi-hallar, lüğətlər, ensiklopediyalar və s.), statistik və say informasiyasının məlumat bazaları, elektron təsvirlər, elektron audiovizual resurslar, multimedia öyrədici proqram və dərsliklər, biblioqrafik göstəricilər,



tərcümə proqramları, elektron oyunlar, kartoqrafik elektron nəşrlər, tammətnli elektron nəşrlər və s.

*Elektron ensiklopediyalar* - bu nəşrlər kifayət qədər müxtəlifdir. Onlar sahəvi, universal və xüsusi ola bilərlər. Bütün ensiklopediyalar multimedia hipermətn nəşrlərinə daxildir. Kitabxana üçün elektron ensiklopediyaları seçərkən sözlüyün həcminə, onun hazırlanmasında iştirak etmiş təşkilat və nüfuzlu şəxslərin adlarına, axtarış imkanlarına, rahat interfeysinə diqqət etmək lazımdır.

*Bioqrafik elektron soraq məlumat kitabçaları* - çap, universal, şəxsi və kompleks ola bilər. Məlumat sorğu kitabçaları əksər hallarda hiperistinadlı multimedia resursları olurlar. Şəxs və ya kollektiv haqqında bütün materialları özündə əks etdirir və istifadəçilərin geniş istifadəsinə imkan verir. Enskolpediyalarda olduğu kimi bioqrafik soraq kitablarının da mühüm keyfiyyəti, elektron nəşrin nüfuzlu nəşriyyatlar tərəfindən tərtib edilməsi və baza materiallarının etibarlılığıdır.

*Multimedia öyrədici proqram və dərsliklər* - ehtimal ki, oyunları çıxmaq şərti ilə bu qrup CD ROM-lar daha çox çeşidlidir. Bu öyrədici nəşrlərini bir neçə qrupa bölmək olar:

-müxtəlif səviyyəli xarici dil öyrədici kurslar

-praktik bacarıqlar təlim edən kurslar (sürücülük, mühasibat uçotu və s.)

-müxtəlif predmetlər üzrə məktəb və ali məktəblər üçün dərsliklər

-oyun formasında tərtib edilmiş uşaqların əqli və fiziki bacarıqlarını inkişafetdirici proqramlar

*Biblioqrafik göstəricilər* - yuxarıda qeyd etdiyimiz kimi hər iki əvvəlki optik kompakt disklərdəki nəşr növlərini elektron kitablara aid etmək olardısa, onda biblioqrafik bazalar kitablar formasında, həmçinin də dövrü ardı davam edən nəşrlər formasında ola bilər. Belə ki, burada hər ay yeni diskin alınmasından söhbət getmir və ancaq (həftəlik, rübülük, iki həftəlik və b.) aylıq kumilyasiyanın daxil olmasından danışılır.

*Biblioqrafik məlumat bazaları* - Hazırda dünya informasiya bazarında çoxlu sayda və adda optik kompakt disklərdə biblioqrafik məlumat bazaları mövcuddur ki, komplektləşdirmə prosesində onların düzgün seçilməsi problemi də qarşıya çıxır. Odur ki, bu zaman bir neçə əsas əlamətə fikir vermək lazımdır:

- məlumat bazasının formalaşma mənbəyinə. Burada əsas diqqəti nüfuzlu, daha çox tanınmış informasiya qurumlarının, təşkilatlarının olmasına yönəltmək lazımdır;
- ölkələrin əhatə dairəsinə, nəzərdə tutulan jurnalların miqdarına, ümumi həcminə, xronoloji əhatəliliyinə;
- işçi interfeysin rahatlığına;
- aparat vasitələrinin və proqramların asan şəkildə yüklənməsinə;
- abunə və çatdırılmanın şərtlərinə.

*Hüquqi məlumat bazaları* - rəsmi sənədlərin toplusunu, ərazi, xronoloji və tematik əhatəli, müxtəlif dərəcəli normativ və hüquqi aktları təşkil edir. Onlar

multimedia nəşrlərinə aid deyillər, lakin müxtəlif normalar üzrə mühüm informasiyanın axtarışını təşkil edən yaxşı axtarış aparat sistemi ilə təchiz edilmişdir. Onu da qeyd edək ki, belə məlumat bazalarının yaradılmasında həmin ərazidə daha fəal olan ixtisaslaşdırılmış formaya müraciət etmək lazımdır.

*Elektron lüğətlər və tərcüməçi proqramlar* - xarici dillərdə mövcud olan mətnlərlə işləyərkən istifadə olunur. Təcrübə göstərir ki, adi çap lüğətləri elektron lüğətlər ilə müqayisədə çap mətninin tərcüməsində daha az rahatdır, buna görə də kitabxanalar kompüterlərdə olan mətnlərin avtomatik tərcüməsini həyata keçirən daha çox elektron lüğətlərə müraciət edirlər.

Elektron tərcüməçilər əldə edərkən hər bir proqramla işləyə bilən və bu proqramlara qoşulmanın xüsusiyyətini müəyyən edən proqram təminatının xırdalıqlarına diqqəti yönəltmək vacibdir. Bu işdə ən yaxşı yol kimi proqramçının fikrinə əsaslanaraq qərar qəbul etmək lazımdır.

*Elektron oyunlar* - təkcə uşaqlar üçün deyil, həmçinin böyüklər üçün də elektron nəşr formasıdır. Elektron oyun kompakt disklərinin kitabxanalarda mövcud olub-olmaması barəsində dünyada çox maraqlı müzakirələr aparılır. Bu mövzuda, birincisi, ona görə şübhələr vardır ki, onları tam mənada elektron kitablara daxil etmək olarmı? İkincisi, mütəxəssislər hesab edirlər ki, ictimai kitabxanalarda bütün növ sənədlərdən istifadə, həmçinin optik kompakt disklərdə bura daxil olmaqla oxucuların informasiya ehtiyacının ödənilməsinə yönəlməlidir və bir halda ki, oyunlar və öyrədici proqramlar bu konsepsiyaya daxil deyil, o zaman başqa bir nöqteyi-nəzər də meydana çıxır. Belə ki, əgər kitabxanalar ənənəvi kitabları, müxtəlif video nəşrləri əldə etmək, tələbatçının istifadəsinə vermək kimi funksiyaları həyata keçirirlərsə, bu zaman elektron nəşrlər də ənənəvi kitablar kimi müxtəlif keyfiyyətdə ola bilər və hətta əyləndirə bildiyi kimi, istifadəçiyə nəyisə öyrədə bilər. Həmçinin elektron oyunlar oynayaraq öyrətmək bacarığına malikdirlər. Bundan başqa mütəxəssislər hesab edirlər ki, kompüter oyunlarının pedaqoji əhəmiyyətini də nəzərə almamaq olmaz. Çünki onlar insanlarda analitik və yaradıcı təfəkkürü inkişaf etdirirlər. Hətta belə fikir var ki, bəzi oyunlara incəsənətin yeni forması kimi də baxmaq olar. Bəzən maarifləndirici disklərlə əyləncəli diskləri fərqləndirmək çətin olur. Amma nəzərə almaq lazımdır ki, məhz ən yaxşı maarifləndirici disklərdə oyunlardan bəhrələnilmişdir, əyləncənin elementləri təhsil vasitəsidir və oyun formasında mövcud olmaqla təlim prosesini stimullaşdırır.

*Tammətnli elektron nəşrlər* - prinsip etibarilə burada hər şey təqdim oluna bilər: çoxcildli kitablar, jurnal və ya qəzet (çox böyük xronoloji dövrlər üçün) topluları və s. Hazırlanma texnologiyasına görə elektron nəşrləri iki qrupa - kağız üzərindən konversiya olunmuş sənədlərə və elektron nəşrlər qruplarına bölmək olar. Elektron nəşrlər kütləvi istifadə üçün bilavasitə xüsusi proqramlar-redaktorlar vasitəsilə yaradılmış (elektron kitab, jurnal, qəzet, seçmələr) elektron sənədlərdir.



Onu da qeyd edək ki, belə nəşrlərin zəif elmi dəyərini, həmçinin hər hansı bədii əsərin ekrandan oxunarkən öz estetik xüsusiyyətini itirdiyini nəzərə alaraq kitabxanalar üçün belə nəşrlərin əldə olunması o qədər də əlverişli deyil.

*Proqram məhsulları* - hal-hazırda optik kompakt disklərdə yayılırlar. Bunlar kompüterlər üçün proqram təminatı, antivirus proqramları, əlavə xidmət proqramları və müxtəlif redaktorlar ola bilər.

*Kartoqrafik elektron nəşrlər* də kitabxana fondlarının komplektləşdirilməsində mühüm rol oynayır. Belə ki, kartoqrafik nəşrlər dünya təcrübəsində müvəffəqiyyətlə elektron formaya çevrilirlər. Nümunə üçün İngiltərədə Edina (Digi map) adlı elektron kitabxana fəaliyyət göstərir ki, bu kitabxana elektron atlaslarla elmi tədqiqat və təhsil proqramlarına kömək məqsədilə milli proqramı reallaşdırır. Onlar rəqəmli atlasların müxtəlif formalarında CD-ROM, GİS, şifrələnmiş kosmofotoatlas və aeroçəkiliş, tematik elektron atlaslar şəklində tərtib olunur.

*Elektron jurnallar* - Elektron resursların daha geniş yayılmış növlərindən biridir. Hal-hazırda dünyada 6000 adda tam mətnli elektron jurnal mövcuddur ki, bunların 50-si daha böyük nəşriyyatların payına düşür. Həmin nəşriyyatların 90%-i elektron resursların yaradılmasında iştirak edirlər. Bunlar PFFU, JSTOR, EBSCO, OCLC və s.dir. Elektron jurnallar nəşriyyatların imkanlarını genişləndirir və tədqiqatçılar tərəfindən bu jurnallara böyük maraq mövcuddur. Son illər elmi, texniki, tibbi elektron jurnalların həcmi artmaqdadır.

**Ədəbiyyat:**


1. İsmayılov X.İ. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti. Bakı, «Nurlar» nəşriyyat-poliqrafiya mərkəzi, 2009.- 312 səh.
2. Rüstəmov Ə., Mustafayeva N.: Avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri və şəbəkələri (nəzəri və metodiki məsələlər).-B., 2007.-124-135 s.
3. Алешин, Л. И. Электронные издания: способы формирования и возможности использования // Библиография. - 2004. – № 6. – С. 3-5.
4. Барышникова, М. Ю. Единая коллекция цифровых образовательных ресурсов: качество, многообразие, методическое сопровождение// Библиотечное дело. - 2009. - №7. - С. 29-32.
5. Доброва В.А. Проблемы формирования фондов аудиовизуальных документов в библиотеках // Библиотеки стран в новых социально-экономических условиях: Сб. науч. тр. /РГБ.-М., 1994.- С.92-103.
6. Рысева Ж.С. Комплектование библиотечных фондов электронными информационными ресурсами/ Фонды Кузбасса: опыт. проблемы. решения. Научно- практический сборник. № 3. с. 20


***Məqalə BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının aprel 2015-ci ili 16 tarixli 7 saylı iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.***

***Rəyçilər: prof. X.İ.İsmayılov, dosent A.Əliyev***